# Green for Growth Fondu: A sinfi Səhmləri

Yer:
Regional

Layihənin nömrəsi:
51440

Biznes sektoru:
Depozitsiz Kredit (qeyri-bank)

Bildiriş növü:
Şəxsi

Ətraf mühit kateqoriyası:
Mİ

Şura iclasının nəzərdə tutulmuş tarixi:
11 dekabr 2019-cu il

Status:
**Yekun yoxlamadan keçib, Direktorlar şurasının təsdiqi gözlənilir**

İngilis dilindəki LXS-nin açıqlanma tarixi:
23 oktyabr 2019-cu il

## Layihənin Təsviri

Təklif olunan əməliyyat GGF-nin imtiyazlı A sinfi səhmlərinə 20 milyon Avroyadək təkrar investisiya qoyuluşunu nəzərdə tutur.

## Layihənin vəzifələri

AYİB investisiyasından əldə ediləcək gəlirlər Fondun investisiya müddəalarına uyğun olaraq, maliyyə və qeyri-maliyyə tərəfdaş institutlarının ("Tİ-lər") kreditləşdirilməsi üçün istifadə ediləcək. Tİ-lər üçün kreditlər birinci dərəcəli borc, subordinasiya borc və zəmanətləri formasında olub, Cənub-şərqi Avropa, Avropanın Şərqi və Cənubi Qonşu Bölgələri ("AQB") də daxil olmaqla, Fondun hədəf bölgəsi üzrə Enerji Səmərəliliyi ("ES"), Resurs Səmərəliliyi ("RS") və bərpa olunan enerji layihələrini maliyyələşdirmək məqsədi daşıyır.

## Keçidlə bağlı təsir

GGF-yə əlavə vəsait təmin etməklə, bu əməliyyat özəl sektorun inkişafını dəstəkləyərək və ətraf mühitə müsbət təsirə nail olaraq, həm yerli kommersiya bankları, həm də bərpa olunan enerji layihələrinə birbaşa investisiyalar vasitəsilə GGF-nin hədəf bölgəsi üzrə ətraf mühitlə bağlı təşəbbüslərin genişləndirilməsinə öz töhfəsini verəcək. Bununla yanaşı, Fond iqlim dəyişikliyinin azaldılması və uyğunlaşdırma fəaliyyətlərinə özəl sektor vəsaitlərinin sabit və davamlı artan payını təmin etməklə, özəl sektoru öz kapital strukturunda iştiraka cəlb etməkdə davam edəcək.

## Sifarişçi barədə məlumat

GREEN FOR GROWTH FONDU, CƏNUB-ŞƏRQİ AVROPA SA SICAV-SIF (İxtisaslaşmış İnvestisiya Fondu)

The Green for Growth Fondu Böyük Lüksemburq Hersoqluğunun qanunlarına əsasən təsis edilmiş investisiya şirkətidir. Bu Fond Türkiyə, Avropanın Şərqi Qonşu bölgələri, Yaxın Şərq və Şimali Afrika da daxil olmaqla, Cənub-şərqi Avropada Enerji Səmərəliliyi və Bərpa olunan Enerjiyə investisiya qoyuluşlarının maliyyə əsasını genişləndirmək məqsədilə, Avropa İnvestisiya Bankı və KfW tərəfindən 2009-cu ilin dekabr ayında təsis edilmişdir. GGF-nin fəaliyyətlərini həmçinin ətraf mühitlə bağlı investisiyalar üçün Mİ-ləri və son kreditalanlara əlavə texniki dəstəyi təmin edən Texniki Yardım Mexanizmi dəstəkləyir.

## AYİB-in maliyyə xülasəsi

20.000.000,00 AVRO

## Layihənin ümumi xərcləri

20.000.000,00 AVRO

## Ətraf mühit və sosial sahə ilə bağlı xülasə

Təsnifatlandırılmış Mİ (ESP 2014): Təklif olunan investisiya vasitəsilə GGF-nun 2, 4 və 9-cu bəndlərə uyğunluğunun davam etməsi, AYİB-in müvafiq Ətraf mühit və Sosial (ƏS) Prosedurlarını həyata keçirərək əməl etməsi və ətraf mühit və sosial məsələlərə dair illik hesabatları AYİB-ə təqdim etməsi tələb ediləcək.

## Texniki əməkdaşlıq

Yoxdur.

## Şirkətin əlaqə məlumatları

Lloyd Stevens
L.stevens@finance-in-motion.com

+49 (0)69 271 035 113
https://www.ggf.lu
Carl-von-Noorden-Platz 5, 60596 Frankfurt/Main, Almaniya

## Biznes imkanları

İşgüzar imkanlar və ya satınalma üçün müştərinin şirkəti ilə əlaqə saxlayın.

Dövlət sektoru layihələri üçün AYİB Satınalma şöbəsinə baş çəkin. Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

## Ümumi sorğular

AYİB-in satınalma ilə əlaqədar olmayan layihələri
Tel: +44 20 7338 7168;
E-poçt: projectenquiries@ebrd.com

## İctimai məlumatlandırma siyasəti (İMS)

İMS AYİB-in strategiyalarının, siyasət və əməliyyatlarının daha yaxşı başa düşülməsini və məlumat verilməsini təbliğ etmək üçün məlumatı necə açıqladığını və tərəfdaşları ilə necə məsləhətləşdiyini izah edir. İctimai Sektor Şurasının Hesabatını necə əldə etməyi öyrənmək üçün aşağıdakı İctimai Məlumatlandırma Siyasəti səhifəsini ziyarət edin.
İMS mətni

## Layihə ilə bağlı Şikayətlərin verilməsi Mexanizmi (LŞVM)

Layihə ilə bağlı Şikayətlərin verilməsi Mexanizmi (LŞVM) AYİB-in cavabdehlik daşıma mexanizmidir. O, AYİB maliyyələşdirdiyi layihələrlə bağlı fiziki şəxslərdən və təşkilatlardan alınmış və ətraf mühitə və/yaxud sosial aləmə zərər verildiyini iddia edən şikayətləri müstəqil nəzərdən keçirməyə imkan verir.

Şikayəti təqdim etmə üsullarına dair məlumat almaq üçün Layihə ilə bağlı Şikayətlərin verilməsi Mexanizmi səhifəsinə baş çəkin. LŞVM üzrə məsul şəxs (pcm@ebrd.com) şikayətin təqdim edilməsinə və LŞVM Reqlamentinə uyğun qeydiyyatdan keçmə və belə qeydiyyat hüququna malik olma meyarlarına dair istənilən sualınıza cavab verəcək.